# *ICESCO-nun Baş direktoru:* "Biz tolerantlığı və dinc yaşamağı təşviq etməliyik"

**"Forumda iştirak edənlər bu sahədə maraqlı olduqlarını bir daha göstərdilər. Həmçinin qlobal təhlükəsizliyə öz töhfələrini verdilər".**



AZƏRTAC xəbər verir ki, bunu ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimində deyib.

"Forum işini bitirdi və biz hamımız özümüzdə məsuliyyət hiss edirik. Ona görə ki, biz tolerantlığı və dinc yaşamağı təşviq etməliyik. Biz necə yanaşı yaşaya bilərik? Bunu öyrənməliyik. Ona görə ki, mədəniyyətlərarası dialoq sülh üçün çox vacibdir. Həmçinin elm, təhsil və mədəniyyət sahələrində apardığımız fəaliyyət böyük rol oynayır. Əməkdaşlıq dəyərlərinə sadiq olmağa çalışırıq".

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.8.